# Azərbaycanın və Özbəkistanın birinci xanımları Daşkənddəki "Mexrli" məktəbi ilə tanış olublar

**Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva avqustun 23-də Daşkənddə "Mexrli" məktəbi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, birinci xanımlara məktəb barədə məlumat verildi.

Bildirildi ki, Uşaq Hematologiya, Onkologiya və Kliniki İmmunologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən məktəbdə fasiləsiz və keyfiyyətli təhsili təmin etmək məqsədilə uzun müddət xəstəxanada müalicə alan və adi məktəbə və ya uşaq bağçasına gedə bilməyən uşaqlara məktəbəqədər, o cümlədən ümumi orta təhsil verilir. Məktəb həm də valideynlərin bu prosesə cəlb edilməsi ilə uşaqların tam reabilitasiyasına və sosiallaşmasına şərait yaradır. Tədris prosesində sırf rəqəmsallaşdırılmış dərslik və kitablardan istifadə olunur.

Qeyd edildi ki, mərkəzdə müalicə alan 1-11-ci sinif şagirdləri üçün ümumi orta təhsil 12 fənn üzrə həyata keçirilir. Məktəbin yaradıcılıq studiyasında uşaqlara musiqi və təsviri incəsənət fənləri öyrədilir.

Sonra birinci xanımlar uşaqlarla görüşdülər və onların əl işləri ilə tanış oldular.

Sonda xatirə şəkli çəkdirildi.







